**“Yeni dövrdə təhsil və tədqiqat fəaliyyəti: reallıqlar və çağırışlar”**
**II Beynəlxalq elmi konfrans**
**13-14 dekabr 2024-cü il, Mingəçevir Dövlət Universiteti, Azərbaycan**

**Konfransın bölmələri:**
1. Təbiət və texnika elmləri.
2. İqtisad elmləri və idarəetmə.
3. Təhsil və humanitar elmlər.

**Konfransın istiqamətləri:**
1. Təhsil millətin gələcəyidir.
2. Təhsil və tədqiqat sahəsində milli və beynəlxalq təcrübənin inteqrasiyası.
3. Tədris və tədqiqat prosesində innovasiyalar.
4. İnklüziv təhsil.
5. İnnovativ inkişafın elmi-texniki əsasları.
6. Təhsil və tədqiqat fəaliyyətinin pedaqoji və psixoloji məsələləri.
7. Təhsil və tədqiqat fəaliyyətində universitet-sənaye əməkdaşlığı.
8. Təbiət elmlərinin aktual aspektləri.
9. Dördüncü sənaye inqilabı.
10. Süni intellektin tətbiqləri və rolu.
11. Təhsil və tədqiqat fəaliyyətinin informasiya təminatı.
12. Rəqəmsallaşma dövründə elm və tədqiqat fəaliyyətinin inkişafının müasir tendensiyaları.
13. Kibertəhlükəsizlik: kadr hazırlığı və tədqiqat potensialı.
14. Ekoloji məsələlərin həllində təhsil və elmi tədqiqatların rolu.
15. Dilçiliyin aktual problemləri.
16. Qarabağın dirçəldilməsi: elmi əsaslandırmanın əhəmiyyəti.
17. Turizmin inkişafının elmi əsasları.
18. COP29: Azərbaycan üçün açılan yeni imkanlar.
19. Elm və təhsilimiz “Yaşıl dünya naminə həmrəylik ili”ndə.

**Konfransın işçi dilləri:** Azərbaycan, türk, ingilis, rus.

Konfransda ali təhsil və elmi-tədqiqat müəssisələrini təmsil edən professor-müəllim heyəti, doktorant, dissertant və elmi işçilər iştirak edə bilərlər.

Konfrans materialları toplu şəklində çap olunacaqdır.

**Konfrans materiallarının tərtibat qaydaları və tələblər:**

- Mətn A4 formatında (210x297 mm), MS Word proqramında Times New Roman şrifti ilə yığılmalıdır (hərflərin ölçüsü – 12; sətirlərarası interval – 1,5; boş sahələr – hər tərəfdən 2 sm);
- konfrans materialının (məqalə və ya tezislərin) mətni ən azı 3 səhifə həcmində olmalıdır;
- mərkəzdə konfrans materialının adı (qalın şriftlərlə); müəllif(lər)in adı, atasının adı, soyadı (tam açıq şəkildə); elmi dərəcəsi, elmi adı; ökənin adı; işlədiyi və təhsil aldığı müəssisənin (doktorant və dissertantlar üçün) adı; e-ünvanı; ORCID nömrəsi; telefon nömrəsi yazılmalıdır;
- ədəbiyyat siyahısı mətnin sonunda əlifba sırası ilə və Ali Attestasiya Komissiyasının tələblərinə uyğun göstərilməlidir (istinad olunan ədəbiyyatın nömrəsi mətnin içərisində göstərilir: məsələn, [3, s.48-57], [2]).

Məqalənin (tezislərin) konfrans materiallarına daxil edilməsi müvafiq bölmələr tərəfindən müəyyənləşdiriləcəkdir. Zərurət yarandıqda bölmənin irad və qeydləri əsasında məqalənin (tezislərin) yenidən göndərilməsi istəniləcəkdir. Bölmənin irad və qeydləri qəbul edilmədikdə və düzəliş edilərək vaxtında göndərilmədikdə məqalə (tezislər) konfrans materiallarına daxil edilməyəcəkdir.

Plagiat hesabatı məqalə (tezislər) ilə birlikdə göndərilməlidir.

Təqdim edilmiş məqalə və tezislər geri qaytarılmır.

**Bir nəfərin müəllifliyi və ya həmmüəllifliyi ilə yalnız bir konfrans materialı qəbul edilir.**

Konfrans materialı (məqalə və ya tezislər) **22 noyabr 2024-cü il tarixindən gec olmayaraq** elektron formada aşağıda göstərilən ünvana göndərilməlidir:

**konfrans@mdu.edu.az**

**Əlaqələndirici şəxs:**
**Vüqar Mustafayev (məsul katib)**
**Tel.: (+994 55) 289 12 66**